

**MUSA ƏLƏKBƏRLİ**

## Mən necə döyüşüm

*Altmışillik yubileyim ərəfəsində çox hörmətli bir şair dostum "Musa sən yaxşı şairsən, ancaq səndən acığım gəlir, öz haqqın uğrunda döyüşmürsən"- dedi. O vaxtdan düz on iki il keçir, o sözlər ürəyimdə ovxarlana-ovxarlana axır ki, şeirə çevrildi.*

Öz haqqın uğrunda döyüş deyirsən,
Deyirsən pasladır qılıncı qını.
Deyirsən şairin haqqından kəsən
Hardasa tapdayır Vətən haqqını.

Mən haqqın quluyam qələm tutandan,
Canımda qələmə qul sədaqəti.
Əhdinə bağlıyam ürəkdən, candan,
Heç nə bu ilqarı pozammaz qəti!

Sənət dünyasında nə alqı-satqı?!
Şeirimiz öyünən gündə deyil ki...
Mən kimlə döyüşüm, şairin haqqı
Şəhid haqqından da öndə deyil ki?!

Şeirə köçə bilmir çox dərdi-sərim,
Silahdan yarımır sözümün səfi.
Mən necə döyüşüm, od sətirlərim
Nişan almayırsa əsil hədəfi?!

Haqqım - qazandığım halal duz-çörək,
Xəyal dərinliyi, səsənginliyi.
Yeddiqat göylərə bağlısa ürək
Yer necə dərk etsin bu zənginliyi?!

Şair, bu iradın, tənən haqdımı?
Özümçün heç zaman döyüşmərəm mən.
Haqqın tərəfində durmaq haqqımı
Ölsəm də heç nəyə dəyişmərəm mən!

Adım gələn yerdə çatır "və sair"
Duyumlu ürəklər daşsa, dəmirsə...
Canım, xeyri yoxdur, nə "yaxşı şair"
Mənsəbli ixtiyar bunu demirsə?!

Kükrəyib haqq mənəm deyən Nəsimi
O haqqın uğrunda soyulmadımı?!
Ekrandan, efirdən qovun səsimi,
Qəzetdən, jurnaldan pozun adımı.

Özəl misralarım çıxsın aşkara,
Qınında çürüyən qılınc olmasın.
Onlar da mənimtək çəkilib dara,
Döyüş meydanında girinc olmasın.

Sözlər var sinəmə sancılan oxdu,
Çox sirlər gizlində, çox dərdlər yasaq...
Haqdan danışmağa haqqımız yoxdu,
Vətəni haqqına qovuşdurmasaq!

## Dəprəmin yazdığı bu qanlı şeirə...

Ekranın önündə dondurub məni
Sözün bitən yeri, tükənən yeri.
Bir acı, amansız don vurub məni
Tanrım, necə çəkək bu dərdi-səri?!

Uçqun altındadır şəhərlər, köylər,
Sarıb Türkiyəmi kütləvi ölüm...
Yerin harayına kar olub göylər,
Yerdən də, göydən də üzülür əlim.

Gör necə qalanıb daş üstündə daş,
Adamlar altında can verir indi.
Mən də daş altdayam bu saat, qardaş,
Yaram neçə yerdən qan verir indi.

Beton topasına dönüb hər bina,
Əkiblər* durmadan "Möcüzə" gəzir.
Can qıyır kiminsə yaşam haqqına,
Hamı xilas üçün durub müntəzir.

Əsrin faciəsi, türkün matəmi
Kömək gəlməlidir, bu bir qaydadır.
Can-başla bölüşür dünya bu qəmi,
Qitələr, ölkələr, hay-haraydadır.

Başına nə gəldi gör birdən-birə,
Sınağa çəkilir tabı millətin.
Təbiət yazdığı bu qanlı şeirə
Tanrı rəy verərmi?! - Çətin, çox çətin...

"Türkiyə tək ürək" ağlar nidası
"Türkəm" deyənləri bir sapa düzür.
Məlhəmdi dözümün, səbrin sədası
Birgə qarşılanır bu ağır hüzr.

Bu sabah gözünü açmadı xeyrə,
Türkiyəm, çəkdiyin sonsuz qəm mənim.
Dəprəmin yazdığı bu qanlı şeirə
"Başın sağ olsun!"du əlavəm mənim.

**Əkiblər - xilasedicilər*

## Ürəyim

Ömrüm ötüb keçdi harayla, küylə,
An kimi ötüşdü ilim, ürəyim.
Sonuncu sirrini aç mənə söylə,
Qoy mətləb üstünə gəlim, ürəyim.

Bir gün ötüb keçər kədər də, qəm də,
İndi dağ bildiyin dərd də, sitəm də.
Yetim bir quzuya dönmə sinəmdə
Kükrəyib çağlayan dəlim - ürəyim.

Sən qaçaq olubsan qeybət düşəndə,
Dəyərlər enəndə, qiymət düşəndə.
Həqiqi sənətdən söhbət düşəndə,
Səninlə uzundu dilim, ürəyim.

Demədin mən hara, bu sevgi hara?
Özün öz içində çəkildin dara.
Neçə dözə bildin sərt baxışlara
Ay kövrək ürəyim, həlim ürəyim?!

Sənsən bu dünyada olub-qalanım,
Acı həqiqətim, şirin yalanım.
Tanrımla aramda körpü salanım,
Sərvətim-qızılım, ləlim ürəyim.

Yanğım burum-burum tüstündə qalıb,
Acı xatirələr qəsdində qalıb.
İndi təkcə sənin üstündə qalıb
Hər şeydən üzülən əlim, ürəyim.

Ömrə yan almamış bir qan, bir qada,
İlk öncə mən səni atmışam oda.
Təkrar olunmayıb heç vaxt dünyada
Mən sənə etdiyim zülüm, ürəyim!

Ürəyə xəyanət...bu elə qəm ki,
Sevgisiz illərin gözləri nəm ki...
Mən sənə elə bir dağ çəkmişəm ki,
Min illər soyumaz külüm, ürəyim.

Uçurar ruhumu bir səda, bir səs,
Sənə darlıq edər dünya - bu qəfəs.
Musanın ömrünə qəfil, təngnəfəs,
Səninlə gələcək ölüm, ürəyim.

## Gözəlliyə baxanda

Gözəlliyə baxanda yorğun gözüm dincəlir,
Ürəyimə güc, qüvvət, dizimə təpər gəlir.
Qalxır ərşi-əlaya, ruhum göyə yüksəlir,
Bu vurğunluq tanrıya can atmağımdı mənim.

Mənzilə çatdırmadı yollarımın kəcliyi,
Vədəsiz yola saldım rahatlığı, dincliyi,
Bu gün anmaq sevgidən yanıq qalan gəncliyi,
Ürəyimi yer-yerdən qanatmağımdı mənim.

İndi peşman, pəjmürdə öz qəlbini dinləmək,
Bu sozalan yaddaşı təzələmək, çinləmək.
Odu sönən illəri təzədən yelpikləmək,
Uyumuş duyğuları oyatmağımdı mənim.

Gözümün vərdişidi bulaqtək duru axmaq,
Qəlbi içdən közləmək, ruhu yandırıb yaxmaq.
Yaşımın bu çağında gözəl qız sənə baxmaq,
Yanar lalə üstünə qar atmağımdı mənim.

Sürəklərdə teylənib ovdan aralı qalan,
Ocağı öləziyən, gülü saralı qalan.
Nə yarada bilər ki, yardan yaralı qalan,
Bu andığım ağrılar yaratmağımdı mənim.

## Dostlar, vaxtımız azdı

*Dostum Nizami Hüseynova*

Bütün günü biz hardayıq? -
Ya evdəyik, ya işdə.
Ömür quştək uçub gedir
bu gəlişdə, gedişdə.

Az adama qismət olur
Bu pərgarlıq, səriştə.
Yaşamağa vaxt ayıraq,
Dostlar, vaxtımız azdı.

Heç fərqinə varmamışıq
vaxtı necə sovmuşuq,
Arzuları, ümidləri xam at kimi
qovmuşuq.
Dadlı xəyalplovlardan
birdəfəlik doymuşuq
Yaşamağa vaxt ayıraq,
Dostlar, vaxtımız azdı.

Həqiqətin kölgəsi var
Əslində heç əsli yox,
Məhəbbətin dörd fəsli var
ayrıca bir fəsli yox.
Təmənnasız doğmalığın
bu dünyada misli yox,
Yaşamağa vaxt ayıraq,
Dostlar, vaxtımız azdı.

Qoy doğmalar cərgələnsin
bir səmitə, bir yana
Xoş ünsiyyət xoşbəxtlikdi
onu içdən duyana.
Bir ərkim var
yerin-göyün təməlini qoyana
Yaşamağa vaxt ayıraq,
dostlar, vaxtımız azdı.

Gecə yatıb dincəlirik,
düşünürük sabah var,
Bilmirik ki, o sabahda
Günah, yoxsa savab var.
Çox cavabsız suallara
şairdə bir cavab var:
Yaşamağa vaxt ayıraq,
dostlar, vaxtımız azdı!

## Ay Vətən

Bu boyda şəhid yükünə
Dözürsə qəddin, ay Vətən.
Mütləq bir gün bütövləşər
Sərhədin, səddin, ay Vətən!

Kəsilməyib səsi, ünü,
Tarix olan qırx dörd günün...
Yağılara öz gücünü
Yaxşı göstərdin, ay Vətən.

Qabağında ağır yasın,
Şah vüqarın qoy sınmasın.
Sən tapda ki... tapdanmasın
Cığırın, rəddin, ay Vətən.

Başdan-başa düşmən şərdi,
Şəri boğmaq bir hünərdi.
Alovlara sinə gərdi,
İgidin, mərdin, ay Vətən.

Yaxındadır Turan turu,
Yenilməzdir türkün zoru.
Dəhliz edər Zəngəzuru
Bu qalib həddin, ay Vətən!